I TÜRKOLOJİ QURULTAYIN İŞTİRAKÇISI – TATARISTAN NÜMAYƏNDƏ HEYƏTİNİN BAŞÇISI ALİMCAN İBRAHİMOV

QƏTİBƏ ÇİNGİZ QIZI MAHMUDOVA
AMEA Nəsimi adına Dilçilik İnstitutu
Türk dilləri şöbəsi, baş elmi işçi
Filologiya elmləri doktoru, dosent
dr.gatibe@gmail.com
ORCID- 0000-0001-9898-9002
055 534 71 89

Xülasə:

1926-cı ildə Bakıda keçirilən I Türkoloji Qurultayı, Türk dünyasının düşüncə tarixində ən mühüm dönüş nöqtələrindən biri kimi qəbul edilir. Bu qurultay yalnız türk dilləri ilə bağlı dil, əlifba, ədəbiyyat məsələlərinin müzakirə olunduğu bir toplantı deyil, eyni zamanda türk xalqları arasında mədəni birliyin, ortaq tarix və kimlik şüurunun formalaşdırılmasına yönəlmiş genişmiqyaslı elmi məclis olmuşdur. Qurultayda iştirak edən qabaqcıl alimlər təkcə həmin dövrün akademik yanaşmalarına deyil, həm də müasir türkologiya elminin istiqamətlərin əsasını təşkil edən fikirlər irəli sürmüşlər.

Qurultayda 100-dən çox alim, o cümlədən Rusiya, Qafqaz, Mərkəzi Asiya və Türkiyə türkoloqları iştirak etmişdir. Qurultayda iştirak etmiş çox məşhur ziyalılar olan Fuat Köprülü, Bəkir Çobanzadə, Yusuf Akçura, Əhməd Cəfəroğlu, Səməd Ağamalıoğlu, V. Bartold, A. Samoyloviç və s. haqqında həddindən çox yazılmış və araşdırmalar aparılmışdır. Lakin qurultayda iştirak etmiş elə alimlər var ki, onlar haqqında çox az bəhs edilmişdir. Belə alimlərdən biri də qurultayda iştirak etmiş Tatarıstan nümanyəndə heyətinin başçısı, tatar ziyalısı Alimcan İbrahimovdur.

Onun çıxışı qurultayın stenoqramlarında qeyd olunmuşdur. Xüsusilə yazı sisteminə dair fikirləri ərəb qrafikasının tənqidi və yeni latın qrafikasının əsas prinsipləri üzərində dayanması onun bu məsələyə elmi və funksional yanaşdığını göstərir.

A. İbrahimov latın əlifbasının türk dillərinin fonetik və orfoqrafik prinsiplərinə uyğun gəlmədiyini söyləsə də, birdən- birə latın əlifbasına keçməyin də tərəfdarı olmamışdır. Əlifba məsələsində mühafizəkar mövqe tutmuş bu ziyalı ərəb qrafikası əsasında yaranmış çoxəsrlik mədəni və elmi irsin itirilməsi təhlükəsindən ehtiyat edirdi.

Açar sözlər: tatar, əlifba, qurultay, türkoloji, ziddiyyət.

A PARTICIPANT OF THE FIRST TURKOLOGICAL CONGRESS – HEAD OF THE TATARSTAN DELEGATION ALIMJAN IBRAGIMOV

Abstract

The First Turkological Congress, held in Baku in 1926, is regarded as one of the most significant turning points in the intellectual history of the Turkic world. This congress was not merely a meeting at which linguistic, alphabetic, and literary issues related to the Turkic languages were discussed; it was also a large-scale scholarly forum aimed at fostering cultural unity among Turkic peoples and shaping a shared sense of history and identity. The leading scholars who participated in the congress put forward ideas that not only reflected the academic approaches of their time but also laid the foundations for the main directions of modern Turkological studies.

More than 100 scholars took part in the congress, including Turkologists from Russia, the Caucasus, Central Asia, and Turkey. Extensive research has been conducted on many prominent intellectuals who participated in the congress, such as Fuad Köprülü, Bekir Çobanzade, Yusuf Akçura, Ahmad Jafaroglu, Samad Aghamalioglu, V. Bartold, A. Samoylovich, and others. However, there were also scholars whose participation has received little scholarly attention. One such figure is the Tatar intellectual Alimjan Ibragimov, who served as the head of the Tatarstan delegation at the congress.

His speech was recorded in the official stenographic transcripts of the congress. In particular, his views on the writing system—focused on a critical assessment of the Arabic script and on the fundamental principles of the new Latin script—demonstrate his scholarly and functional approach to this issue.

Although A. Ibragimov stated that the Latin alphabet did not fully correspond to the phonetic and orthographic principles of the Turkic languages, he was also not an advocate of an abrupt transition to the Latin script. Adopting a conservative stance on the alphabet issue, this intellectual expressed concern about the potential loss of the centuries-old cultural and scholarly heritage that had developed on the basis of the Arabic script.

Key words: Tatar, alphabet, congress, Turkological, contradiction.

Giriş:

I Türkoloji Qurultaya hazırlıq prosesi hələ çağırılmasından xeyli əvvəl türk xalqları və elmi ictimaiyyət arasında geniş rezonans doğurmuş, bu mötəbər toplantının miqyasını və tarixi əhəmiyyətini aydın şəkildə nümayiş etdirmişdir. Bakıda çağırılacaq I Türkoloji Qurultay təkcə Sovet İttifaqı məkanında deyil, ümumilikdə dünya miqyasında türkologiya sahəsində ilk belə ümumelmi forum olacaqdır. Bu qurultay türkologiya ilə məşğul olan tədqiqatçıların indiyədək

əldə etdikləri elmi nailiyyətləri ümumiləşdirmək və onları sistemli şəkildə müzakirə etmək üçün nadir imkan yaradacaqdı.

Qurultaya hazırlıq mərhələsində türk xalqlarının hər biri bu elmi məclisdə layiqincə təmsil olunmaq məqsədilə təşkilat komitəsi ilə sıx əlaqələr qurmağa çalışmışdır. Türkmənlər, özbəklər, qırğızlar, qaraçaylar, kabardinlər, balkarlar, osetinlər, çeçenlər, noqaylar, tatarlar və digər xalqlar öz nümayəndələrini qurultaya göndərəcəkləri barədə dəfələrlə rəsmi məlumatlar təqdim etmiş, eyni zamanda alimlər məruzə və tezislərini komitəyə göndərmişlər. Bu faktlar I Türkoloji Qurultayın yalnız dar elmi çevrədə deyil, geniş etno-mədəni mühitdə də böyük maraq doğurduğunu göstərir (Cəfərov, 2025, s. 15).

Qurultaya hazırlıq işlərində İttifaq Elmlər Akademiyası, Şərqşünaslar Cəmiyyəti, ali təhsil müəssisələri, elmi-tədqiqat institutları və elmi-pedaqoji təşkilatlar fəal şəkildə iştirak etmişdir. Bu geniş institusional dəstək I Türkoloji Qurultayın türk xalqlarının elmi, mədəni və ictimai həyatında mühüm rol oynayacağına dair güclü gözləntilərin mövcud olduğunu təsdiqləyirdi.

Əsas hissə:

Müxtəlif türk xalqlarının nümayəndə heyətləri içərisində Tatarıstan nümayəndə heyəti də var idi. Tatarıstan nümayəndə heyətinə professor, dilçi alim, yazıçı, ictimai xadim Alimcan İbrahimov başçılıq edirdi.

Alimcan İbrahimov — tatar xalqının tarixində unikal bir şəxsiyyətdir. Bu böyük yazıçı, alim, publisist, ictimai dövlət xadiminin irsi tatarların və ümumilikdə türk xalqlarının humanitar elmlərinin inkişafı baxımından son dərəcə dəyərli bir sərvətdir. Alimcan İbrahimov müasir tatar dilçiliyinin bir elm sahəsi kimi formalaşmasında və onun metodologiyasının işlənib hazırlanmasında mühüm rol oynamış, öz dövrünün aparıcı alimlərindən biri olmuşdur.

Alimcan Girfanoviç İbrahimov 12 mart 1887-ci ildə Ufa quberniyasının Sterlitamak qəzasının Sultanmuradovo kəndində (müasir Başqırdıstan Respublikasının Aurğazı rayonu) sadə bir ailədə anadan olmuşdur. Onun atası — Girfan İbrahimov bir müddət kənddə imam olmuşdur. Bu isə, şübhəsiz ki, alimin həyat seçimlərinə təsir göstərən səbəblərdən biri olmuşdur.

Alimcan İbrahimov ilkin təhsilini valideynlərindən almış, daha sonra qonşu kəndin mədrəsəsində və öz kəndində zemstvo tipli ibtidai rus məktəbində oxumuşdur. Beləliklə, gələcəyin görkəmli dilçisi hələ erkən uşaqlıqdan həm Şərq, həm də rus mədəniyyəti ilə eyni vaxtda tanış olmuş, bu amil onun dilçi kimi formalaşmasına da təsir etmişdir. Sonralar A.İbrahimov Orenburqda Vəli mollanın köhnə üsullu mədrəsəsində təhsil almış, burada ənənəvi müsəlman elmləri sistemini, o cümlədən orta əsr ərəb filologiyasını dərindən mənimsəmiş, daha sonra isə tatar ziyalılarının çoxsaylı nümayəndələrinin yetişdiyi Ufada məşhur yeni üsullu "Qaliya" mədrəsəsində oxumuşdur. Məhz "Qaliya" mədrəsəsi Alimcan İbrahimovun müstəqil linqvistik mövqeyinin formalaşmasında həlledici rol oynamışdır (Aşnin, F. 2002, s.67).

1908-ci ildə şagirdlərin demokratik hərəkatında iştiraka görə mədrəsədən xaric edildikdən sonra Alimcan İbrahimov müxtəlif fənləri müstəqil şəkildə öyrənməyə davam etmiş, xüsusilə rus və Qərbi Avropa elminə üstünlük vermişdir. Böyük arzusuna baxmayaraq, siyasi cəhətdən etibarsız hesab edildiyi üçün universitetə daxil ola bilməmişdir. Gənc A.İbrahimovun biliyə can atmasını, məsələn, belə bir fakt aydın göstərir: o, bir dəfə bir mülkədarın yanında işləməyə razılaşmış, əməkhaqqı əvəzinə isə mülkədarın oğlundan rus dili dərsləri almışdır.

1909-cu ildə Kazana gəldiyi vaxta qədər Alimcan İbrahimov artıq tam formalaşmış dilçi idi və dərhal elmi fəaliyyətə başlamışdır.

A.İbrahimovun linqvistik baxışlar sistemi, onun irəli sürdüyü nəzəriyyələr və dil sahəsində praktik fəaliyyət metodikası tatarlar arasında dil elminin inkişaf tarixində yeni bir mərhələ kimi meydana çıxmışdır. Bu baxışlar sisteminin formalaşmasına XX əsrin əvvəllərində tatar millətinin sosial inkişaf xüsusiyyətləri, XIX əsr tatar maarifçilərinin fəaliyyəti, tatar milli təhsil sisteminin spesifikası, alimin klassik ərəb qrammatik ənənəsi ilə dərindən tanışlığı, rus və Avropa alimlərinin əsərlərini öyrənməsi, özünütəhsil kimi amillər təsir göstərmişdir. XX əsrin başlanğıcı tatar xalqının ictimai, iqtisadi və mədəni həyatının bütün sahələrində kəskin dəyişikliklər, sürətli və güclü inkişaf dövrü idi. Alimcan İbrahimov bir dilçi kimi də bu "Tatar Renessansı" adlandırılan dövrün məhsulu olmuşdur (XXI vek. Materialı Mejdunarodnoy nauçno-praktiçeskoy konferensii, 2007, s.109).

Həmin dövrdə tatar xalqında ana dili üzrə dərsliklərə ciddi ehtiyac vardı; tatar ictimaiyyətini milli özünümüəyyənləşmə məsələsi narahat edir və bununla bağlı ədəbi dilin xalq təməlində inkişafı, xüsusən onun leksik və terminoloji sisteminin təkmilləşdirilməsi, aydın və başadüşülən orfoqrafiyanın yaradılması problemləri meydana çıxırdı. Alimcan İbrahimov dilçilik fəaliyyətini bu ictimai ehtiyacların ödənilməsi və tatar milləti qarşısında duran aktual problemlərin həlli məqsədilə həyata keçirirdi.

A.İbrahimovun linqvistik baxışlar sistemi dünya dilçilik elminin müxtəlif ənənələrinin təsiri altında formalaşmışdır. Tatar xalqı əsrlər boyu iki böyük sivilizasiya — Qərbi Avropa və Şərq, ərəb-müsəlman sivilizasiyası ilə sıx təmasda yaşamışdır. Buna görə də A.İbrahimovun linqvistik baxışlarına bu iki, bir-birindən xeyli fərqlənən elmi ənənə təsir göstərmişdir.

Avropa elminin A.İbrahimovun dilçilik konsepsiyasına təsiri XX əsrin əvvəllərində tatar ziyalılarının ümumi Avropa yönümlülüyünün və elmi idrakın Avropa prinsiplərinin mənimsənilməsinin nəticəsidir. Bu təsir tədqiqatların ümumi metodologiyasında özünü göstərir. Alimcan İbrahimovun bütün linqvistik əsərlərində aşağıdakı əsas prinsiplərin ardıcıl reallaşdırılması tendensiyası aydın nəzərə çarpır: 1) klassik köhnə tatar dilinə deyil, ümumxalq danışıq dilinə, yəni "ölü" deyil, "canlı" dilə üstünlük verilir; 2) yalnız tatar dilinə xas olan faktlar

araşdırılır. A.İbrahimov digər dillərin qrammatik sisteminin tatar dilinə mexaniki köçürülməsinin əleyhinə idi.

Öz növbəsində, ənənəvi ərəb dilçiliyinin A.İbrahimovun linqvistik konsepsiyasına təsiri inqilabdan əvvəlki tatar təhsil sisteminin obyektiv xüsusiyyətləri ilə şərtlənirdi. Ərəb dili və klassik ərəb filologiyası tatar mədrəsələrində əsrlər boyu tədris olunmuşdur. Həm də nəzərə alsaq ki, A.İbrahimov mədrəsədə oxuduğu dövrdə ən yaxşı tələbələrdən biri idi, aydın olur ki, klassik ərəb qrammatikası və onun metodologiyası gələcək alim tərəfindən yaxşı mənimsənilmiş və onun üçün təbii hesab edilmişdir.

A.İbrahimovun dil problemlərinə həsr olunmuş ilk məqalələri 1910-cu ildə tatar dövri mətbuatında dərc olunur. 1911-ci ildə isə onun iki əsas əsəri — "Tatar morfologiyası" ("Tatar sarıfı") və "Tatar sintaksisi" ("Tatar nəxüvə") adlı kitabları işıq üzü görür. Tatar xalqının ana dili üzrə dərsliklərə ehtiyacını ödəmək məqsədilə yazılmış və tatar dilinin qrammatik quruluşunu adekvat təsvir etmək cəhdi olan bu əsərlər dərhal tatar cəmiyyətində populyarlıq qazanmışdır. Onlar tatar mədrəsələrində ana dili üzrə ən geniş yayılmış dərsliklərə çevrilmiş və 1918-ci ilə qədər beş-altı dəfə yenidən nəşr olunmuşdur (Zäkiyev, M. 1987, s.340).

XX əsrin əvvəllərinədək tatar qrammatikaları əsasən rus və ya ərəb qrammatikalarının prinsipləri üzrə tərtib edilirdi; qrammatik quruluşun təsviri tatar dilində rus və ərəb dillərinə uyğun gələn hadisələrin axtarışı yolu ilə aparılırdı. A.İbrahimovun qrammatik konsepsiyası isə tatar dilinin qrammatik quruluşunun tədqiqində orijinallığı ilə səciyyələnir. Alim nitq hissələrinin təhlilini aparmış və onların adekvat kateqoriyalarla təsvirinə cəhd etmiş, tatar dilinin sintaktik sistemini öyrənmişdir.

Ana dilin qrammatik sistemini tədqiq edərkən A.İbrahimov bu sahədə uğur qazanmış digər xalqlardan əsas nəzəri və metodoloji müddəaların mənimsənilməsi prinsipinə sadiq qalırdı. A.İbrahimov tatar dilçiliyində ilk dəfə bir çox morfoloji və sintaktik kateqoriyaları adekvat şəkildə təsvir etməyə nail olmuşdur. Belə ki, sifət və zərfin fərqləndirilməsi problemi, isimdə hal kateqoriyası, sifətin müqayisə dərəcələri, feilin növ kateqoriyası, köməkçi və mürəkkəb feillər, sayların və əvəzliklərin qolları, eləcə də sadə və mürəkkəb cümlələrin təsnifatı, analitik və sintetik budaq cümlələrin orijinal şəkildə ayrılması onun tədqiqatlarında xüsusi maraq doğurur.

"Tatar morfologiyası" və "Tatar sintaksisi" sırf linqvistik deyil, həm də linqvodidaktik əsərlər idi. Bu əsərlərdə A.İbrahimov ana dilinin tədrisinə dair öz metodikasını reallaşdırırdı; həmin metodika xalqilik və materialın əlçatanlığı prinsiplərinə əsaslanırdı. 1916-cı ildə İbrahimov "Tatar dilini necə öyrətməli?" ("Tatar telen niçek ukıtırga?") adlı xüsusi metodik tədqiqat nəşr etdirmiş, burada ana dilinin tədris fənni kimi əhəmiyyəti əsaslandırılmış, ana dili dərslərinə təlim sistemində mərkəzi yer ayrılmışdır. Beləliklə, A.İbrahimov təkcə görkəmli dilçi deyil, həm də pedaqoq və metodistdir.

XX əsrin əvvəllərində tatar cəmiyyətini narahat edən digər mühüm problem əlifba və orfoqrafiyanın islahı zərurəti idi. Buna görə də A.İbrahimov bu prosesə fəal şəkildə qoşulmuşdur. Onun orfoqrafik konsepsiyası əsas orfoqrafik prinsiplərin özünəməxsus balansına söykənir və parlaq rasional-praktik yönümlə seçilirdi. Tarixən "urta imla" adı ilə tanınan, ilk dəfə Əhmətxadi Məqsudi tərəfindən təklif edilən, A.İbrahimov tərəfindən ətraflı işlənən və Qayum Nəsirinin nəzəri baxışlarına əsaslanan bu orfoqrafik sistem sonralar əlifbanın dəfələrlə dəyişməsinə baxmayaraq, müasir tatar orfoqrafiyasının əsasına çevrilmişdir. Bu baxışlar obyektiv səbəblərdən bu gün daha çox tarixi baxımdan qiymətlidir, lakin tatar orfoqrafiyasında fonetik prinsipin əsas prinsip kimi formalaşmasında böyük rol oynamışdır (Kazanskaya lingvistiçeskaya şkola, 2008, s.70).

A.İbrahimov terminologiya problemləri ilə də məşğul olmuş, bu sahədəki irsi bu günə qədər elmi-praktik əhəmiyyətini qoruyub saxlamışdır. Bu istiqamətdə fəaliyyət iki istiqamətdə aparılırdı: birincisi, o, tatar dilində elmi terminologiyanın yaradılmasının nəzəri əsasının və prinsiplərinin işlənməsinə töhfə vermişdir; ikincisi, praktiki filoloq kimi tatar linqvistik terminologiyasının yaradılmasında bilavasitə iştirak etmişdir. A.İbrahimovun müasir tatar linqvistik terminologiyasının formalaşmasındakı rolu təkcə yeni terminlər yaratmaqla məhdudlaşmırdı. O, digər müəlliflərin təklif etdiyi bir çox terminləri, həmçinin bəzi ənənəvi ərəb terminlərini populyarlaşdırmış və lokallaşdırmışdır. Bu mənada alim müasir tatar linqvistik terminologiyasının əsasını qoyanlardan biri kimi, xüsusən terminoloji sistemin qaydaya salınmasında böyük rol oynamışdır.

A.İbrahimov tatar dilinin tarixinin öyrənilməsinə və bununla bağlı sosiolinqvistik problemlərin həllinə də böyük töhfə vermişdir. Xüsusilə, o, tatar ədəbi dilinin zaman, coğrafi və etnik sərhədlərinin müəyyənləşdirilməsi və tətbiq sahəsi məsələlərini araşdırmışdır. A.İbrahimov həmçinin XIX əsrin sonu — XX əsrin əvvəllərində yeni türk ədəbi dillərinin meydana gəlməsi və inkişaf mexanizmlərini təhlil etmiş, "tatarlar" etnoniminin tatar cəmiyyətində reabilitasiyası məqsədilə onun işlənməsinin linqvistik və sosial aspektlərini müəyyənləşdirmişdir. (Xakov, V.1969, s.10).

A.İbrahımovun linqvistik irsi yalnız tatar dilçiliyi üçün deyil, bütövlükdə türkologiya üçün də qiymətlidir. Xüsusilə, onun ayrı-ayrı türk ədəbi dillərinin ümumi universal prinsiplər əsasında qurulmuş müstəqil sistemlər kimi inkişafı barədə fikri maraq doğurur. Bu kontekstdə A.İbrahımov türk dillərinin müəyyən unifikasiya prinsiplərini də təklif etmişdir.

A.İbrahımovun linqvistik fəaliyyətinin mühüm aspektlərindən biri onun 1925–1927-ci illərdə TAASSR Xalq Maarif Komissarlığının Akademik Mərkəzinin sədri vəzifəsində çalışmasıdır. Onun təşkilati işi Tatarıstanda dilçilik, filoloji və humanitar tədqiqatlar sisteminin əsasını qoymuş, onun iştirakı ilə respublikada ixtisaslaşmış elmi müəssisələr yaradılmış və formalaşmağa

başlamışdır. 1906-cı ildə Uralsk şəhərində müəllimlik fəaliyyətinə başlamışdır. 1909-cu ildə "Gənc ürək" adlı ilk romanını nəşr etdirmişdir. Sonrakı illərdə ədəbiyyat və dilçilik sahəsində fəal çalışmış, tatar ədəbi dilinin formalaşmasında mühüm rol oynamışdır (Pervıy Vsesoyuznıy Tyurkologiçeskiy Syezd, 2011, s.90).

A.İbrahimov "Ədəbiyyat nəzəriyyəsi", "Dil bilgisi" kimi əsərlərin müəllifidir. O, həmçinin təhsil və maarif məsələləri ilə bağlı bir sıra məqalələr yazmışdır. 1918-ci ildə "Milli ədəbiyyat" mövzusunda çıxışlar etmişdir.

1917-ci il Fevral inqilabından sonra siyasi və ictimai fəaliyyətini gücləndirmiş, "Yol", "Bizim yol" kimi qəzet və jurnallarda çalışmışdır. Rusiyada və Volqaboyunda müsəlman xalqlarının mədəni-maarif həyatında fəal iştirak etmişdir.

Sonralar Mərkəzi Müsəlman Komissarlığında çalışmış, 1920-ci illərdə Tatarıstan Sovet Sosialist Respublikasında təhsil və mədəniyyət sahəsində mühüm xidmətlər göstərmişdir. Onun elmi və publisistik məqalələri 1925–1927-ci illərdə "Maarif" dərgisində dərc olunmuşdur. 1927-ci ildə səhhətində yaranan problemlərə görə Yaltaya köçdü. Burada yazıçılıq və elmi fəaliyyətini davam etdirdi. 1932-ci ildə SSSR Yüksək Soveti tərəfindən ona "Əmək Qəhrəmanı" adı verildi.

Tatar ziyalılarının bir çox nümayəndələri kimi, Alimcan İbrahimov da XX əsrin 30-cu illərindəki kütləvi repressiyalardan yan keçə bilməmiş, həyatı faciəli şəkildə sona çatmışdır. 1937 -ci ildə ağır xəstə halda o, həbs edilmiş və 21 yanvar 1938-ci ildə Kazandakı həbsxana xəstəxanasında vəfat etmişdir.

Uzun illər ərzində A.İbrahimovun elmi əsərləri unudulmuş, tatar dilçiliyində varislik pozulmuşdur. Alimin şəxsi arxivi də itib. Bu qiymətli materiallar aşkar olunarsa, onun çoxşaxəli fəaliyyətini daha dərindən öyrənmək imkanı yaranacaqdır.

1955-ci ildə A.İbrahimov reabilitasiya edilmiş, irsi geri qaytarılmışdır. Bu gün tatar dilçiliyi sahəsində çalışan tədqiqatçılar getdikcə daha çox bu çoxşaxəli və zəngin, lakin hələ tam öyrənilməmiş irsə müraciət edirlər. Alimcan İbrahimov isə müasir dilçilər üçün klassik bir örnək kimi qalır.

Bütün bunlara baxmayaraq, Stalinin Böyük Terror dövründə – 1937-ci ilin 29 avqustunda Yaltadakı evində tutularaq Stalinin əleyhinə "komplolar hazırlamaq" ittihamı ilə Kazana aparıldı və həbs edildi. Səhhətinin ağırlaşması nəticəsində 1938-ci il yanvarın 21-də həbsxana xəstəxanasında həyatını itirdi. Kazandakı Arxangel qəbiristanlığında dəfn edildiyi güman edilir.

Alimcan İbrahimov barəsində irəli sürülmüş ittihamlar üzrə 1955-ci il sentyabrın 24-də rəsmi şəkildə bəraət almışdır. Tatarıstanda linqvistik tədqiqatlar sistemi sonrakı yarım əsrdən çox müddətdə məhz Alimcan İbrahımovun bu proqram xarakterli, elmin gələcək inkişaf istiqamətlərini müəyyənləşdirən təkliflərinə uyğun şəkildə inkişaf etmişdir.

A. İbrahimovun türkologiyada ən böyük xidmətlərindən biri də I Bakı Ümummittifaq Türkoloji Qurultayındakı fəaliyyətidir. Tatarıstan nümayəndələri qurultaya dəvəti hələ 1925-ci ildə almışdılar. Tatar siyasətçiləri və mədəniyyət xadimləri arasında böyük həyəcan hökm sürürdü, çünki qurultayın məkanının seçilməsi belə məsələnin əvvəlcədən müəyyənləşdirildiyinə işarə edirdi. Tatarıstanda qurultaya hazırlığa rəhbərlik edən Alimcan İbrahimov şübhələrini vilayət komitəsinə çatdırmışdı. Lakin o, müzakirələrin siyasi xarakter alacağını qabaqcadan görə bilməmişdi. Qurultaya iki həftə qalmış o, belə bir ehtimal irəli sürmüşdü: "Latın qrafikası haqqında danışıqlar məcburi qətnamələrin qəbul edilməsi müstəvisində deyil, müəyyən sistemə salınmalı elmi mülahizələr çərçivəsində aparılacaq" (Birinci Türkoloji Qurultayın Görünən və Görünməyən tərəfləri.2016, s. 78).

Qurultaydakı mübahisələr 1926-cı ildə Bakıda keçirilmiş Birinci Ümumittifaq Türkoloji Qurultayında A.İbrahımovun rəhbərlik etdiyi Tatarıstan MSSR nümayəndə heyətinin bütün türk xalqları üçün latın əlifbasının qəbul edilməsinin əleyhinə səs verməsindən sonra daha da kəskinləşmişdir. Həmin polemikada görkəmli alim mühafizəkar mövqe tutmuş, latın qrafikasına keçidin əleyhdarı olmuş, ərəb qrafikasında yaradılmış çoxəsrlik mədəni və elmi irsin itirilməsi təhlükəsini əsaslı şəkildə vurğulamışdır. Eyni zamanda, kommunist dünya görüşünə malik olduğundan, o, mövqeyini bununla da əsaslandırırdı ki, əlifbanın dəyişməsi böyük maddi və intellektual xərclər tələb edəcək və tatar cəmiyyətinin sosialist inkişafını ləngidəcəkdir (1926 Bakû Türkoloji Kongresinin 70. Yıl Dönümü Toplantısı, 1999, s.39).

I Türkologiya qurultayının altıncı iclası 1 mart 1926-cı ildə fəaliyyətə başlamışdır. Altıncı iclasda aşağıdakı məruzələr dinlənilmişdir. L. V. Şerbanın məruzəsi – "Orfoqrafiyanın əsas prinsipləri və onların ictimai mahiyyəti"; L. İ. Jirkovun orfoqrafiya ilə bağlı məruzəsi; A. İbrahimovun orfoqrafiya ilə bağlı məruzəsi; Ş. Rəhimənin orfoqrafiya ilə bağlı məruzəsi. Bu məruzə özbək dilində söylənilmişdir. Məruzənin rus dilinə tərcüməsi qurultayın stenoqramında öz əksini tapmışdır; F. Əhmədzadənin məruzəsinin xülasəsi.

A.B.Baytursunun orfoqrafiya ilə bağlı məruzəsi.

Altıncı iclasda orfoqrafiya ilə bağlı müzakirələr davam etdirilmişdir. İclas öz işini martın 1-də saat səkkizi otuz dəqiqə keçmiş bağlı elan etmişdir.

6-cı iclasda A.İbrahimov öz məruzəsini təqdim edir. Məruzə üç hissədən ibarətdir. Birinci hissədə XIX əsrin ikinci yarısına qədər mövcud olan köhnə orfoqrafiya sistemləri tənqidi təhlil olunur; Uyğur, Orxon və qədim ərəb orfoqrafiyası təhlil edilir. İkinci hissədə ərəb əlifbasının islahı və türk xalqlarının orfoqrafiyasının dəqiqləşdirilməsi üçün aparılan hərəkələr təsvir olunur: Osmanlı-Türk, başqırd, özbək, Krım hərəkələri və s. Bu hərəkələrin əsas məqsədi hər ləhcədə neçə sait olduğunu müəyyən etmək və onları hansı hərflərlə yazmaq məsələsini həll etmək idi, çünki ərəb əlifbasında 10 saitdən yalnız üçü göstərilir. Həmçinin ərəb sözlərinin tatar, özbək və

ya qazax yazısı ilə deyil, yalnız ərəb yazısı ilə yazılması nəticəsində bir dildə üç fərqli orfoqrafiya yaranır. A.İbrahimovun məruzəsinin üçüncü hissəsində konkret təkliflər təqdim olunur ki, bu da türk xalqları arasında mövcud olan uyğunsuzluqları azaltmağa və birləşdirməyə xidmət edir. Alimin fikrincə, orfoqrafiyanın dəqiqləşdirilməsi üçün aşağıdakı xüsusiyyətlər nəzərə alınmalıdır: Səs harmoniyası (sinharmonizm) – bütün sözlər sərt və ya yumşaq olur və bu qanuna bütün qoşmalar tabe olmalıdır.; Aqlutinasiya – kök və qoşmalar bütün hallarda eyni qalır; morfoloji struktur əsas götürülməlidir.; Morfoloji yanaşma – yalnız fonetik fərqləri nəzərə almaq kifayət deyil, xüsusilə müxtəlif ədəbi dialektlərdə (məs., Qazan tatarları) morfoloji birlik təmin edilməlidir.; Anarxiyaya son qoymaq – müxtəlif dialektlərdə fərqli yazı qaydalarının tətbiqinə qarşı çıxmaq lazımdır. Yeni söz və hərflər – ədəbi dilin formalaşmasını asanlaşdırmaq üçün hər yeni söz və hərf vahid prinsiplərlə qəbul edilməlidir.

A.İbrahimov qeyd edir ki, türk ədəbi dillərində səs harmoniyası və tərkib harmoniyası kimi prinsiplər uyğunlaşdırılmalıdır. Məsələn, qazax dili yumşaqlığı, tatar və başqırd dili isə sərtliyi göstərir. Bütün dialektlər üçün ortaq işarə və hərflər müəyyən edilməli, bir vahid yazı sistemi yaradılmalıdır.

O, həmçinin elmi transkripsiyaya əsaslanan xüsusi bir "ərəb yazısı" yaratmağı təklif edir ki, bu, yalnız elmi məqsədlər üçün istifadə olunsun və bütün səs fərqliliklərini göstərsin. Praktik orfoqrafiya üçün isə mövcud terminlər saxlanılmalıdır.

A.İbrahimov vurğulayır ki, bir vahid türk dili yaratmaq mümkün deyil. Bu, həm fonetik, həm morfoloji, həm də sosial-iqtisadi səbəblərlə mümkünsüzdür. Lakin türk dilləri bir-birindən ayrılmamalıdır. O, türk dilləri üçün federasiya prinsipini təklif edir: hər dil öz strukturuna görə avtonom olacaq, lakin bütün türk dillərinin ortaq əsasları, qanunları və xüsusiyyətləri nəzərə alınacaq. Federasiya anlayışı dəqiq olmasa da, bu prinsiplər sui-istifadə edilmədən tətbiq olunmalıdır.

A.İbrahimov iki kateqoriyadan bəhs edir: birincisi – hər dilin fərdi xüsusiyyətləri, ikincisi – bütün türk dilləri üçün ortaq xüsusiyyətlər. A.İbrahimov öz materiallarını tatar dilində təqdim edərək bütün türk dialektləri üçün ortaq orfoqrafiya prinsiplərini işləyib hazırladığını bildirir. O, hər dilin öz xüsusiyyətlərini qorumaqla, eyni zamanda türk dillərinin ortaq qanunlarını və səs harmoniyasını nəzərə alaraq vahid sistem yaratmağı təklif edir.

Alimcan İbrahimovun fikirləri qurultay ərəfəsində çox tənqid olunmuşdur. Alimcan İbrahimov ona yönəlinən tənqidləri cavabladığı çıxışlarında türk dillərinin yazı birliyi üçün Anadolu türkcəsini əsas almağın əleyhinə olduğunu bildirdi. Alimcan İbrahimov, özünə yönəldilən tənqidlərə cavab olaraq bildirirdi ki, Anadolu türkcəsinin əsas götürülməsi Türk dillərinin yazı birliyi üçün vacibdir; əksinə, hər bir dilin ortaq fonetik və morfoloji xüsusiyyətlərindən çıxış edərək regional xüsusiyyətlərə əsaslanan ümumi bir yazı məntiqi

qurmağı müdafiə edirdi. Məşhur alim, yazı sisteminin bütöv Türk dillərinin əsas xüsusiyyətlərinə uyğun və işlək olmalı olduğunu, bu xüsusiyyətlərin həm elmi, həm də praktik baxımdan səhvlərə yol açmayacağını vurğulayırdı.

Müzakirə açılarkən A. İbrahimov əsas tezislərini ilkin məruzə xarakterində təqdim edərək danışmağa başlamışdır. Onun fikrincə, iki əsas yanaşma mövcuddur: birincisi – Azərbaycan türklərində, ikincisi isə Qafqazda və bəzi Türk respublikalarında əlifba təcrübələrinin dəyərləndirilməsi; üçüncüsü isə Tatar Sovet Cümhuriyyətinin mövcud vəziyyətidir.

A.İbrahimov əvvəlcə məsələni prinsipial səviyyədə nəzərdən keçirmişdir. O, 1921-ci ildə Kazanda keçirilən qəzetçilər toplantısını və 1924-cü ildə Moskvada baş tutan Tatar–Başqırd Maarif Qurultayını xatırladaraq, həmin qurultayda Latın əlifbasına qarşı ciddi bir etirazın olmadığını, əksinə, Latın hərflərinin ərəb əlifbasına nisbətən bəzi üstünlüklərinin qəbul edildiyini qeyd etmişdir. Lakin o dövrdə ərəb əlifbasından latına keçid məsələsinin lazımi səviyyədə diqqətlə araşdırılmadığını, bu səbəbdən də mövzunun düzgün qiymətləndirilmədiyini vurğulamışdır.

Onun fikrincə, bu qərar şəxsi deyil, ictimai xarakter daşıyır. Buna görə də latın əlifbasına keçid Tatar ziyalıları üçün yeni və ya xarici bir fikir deyil; lakin hələlik yalnız müzakirə mərhələsindədir və müəyyən şərtlərə görə ertələnmiş bir məsələdir.

A.İbrahimova görə, ərəb əlifbası tarixi və dini baxımdan millətin kimliyinin bir parçası olsa da, onun texniki və estetik cəhətdən kifayət qədər səmərəli olmadığı görünür. Latın əlifbasının üstünlüyü yazının forması deyil, öyrənmə və tətbiq baxımından asanlığı, eləcə də çağdaş texnologiyalarla uyğunlaşma imkanlarıdır. Bu baxımdan latın qrafikasının gələcəkdə daha məqsədəuyğun olacağı qənaətinə gəlinir.

Bu nöqtədə A.İbrahimov Azərbaycan və Qafqaz nümunələrinə toxunur. O bildirir ki, Azərbaycanda latın əlifbasına keçid artıq atılmış bir addımdır və hətta Şimali Qafqaz kəndlərində belə oxuma-yazma latın əlifbası əsasında aparılır. Ancaq müəllif xüsusilə vurğulayır ki, bu prosesi tatar xalqı üçün eyni şəkildə tətbiq etmək mümkün deyil. Çünki Azərbaycanda köhnə ərəb qrafikalı yazı demək olar ki, sıradan çıxmışdır, halbuki Tatarıstanda hələ də güclü yazılı mədəniyyət və mətbəə sistemi mövcuddur.

Alimcan İbrahimov qeyd edir ki, tatar xalqı 600 illik ədəbi-mədəni irsə və 125 illik mətbəə ənənəsinə malikdir. Cümhuriyyət dövründə iki minə yaxın təhsil müəssisəsi və iki mindən artıq müəllim fəaliyyət göstərirdi. Bu şəraitdə yüz minlərlə kitabın latın əlifbası ilə yenidən çap edilməsi planlaşdırılırdı. Həmçinin Moskva və Sibir kimi bölgələrdə də tatarca kitab nəşri nəzərdə tutulurdu. Beləliklə, mövcud vəziyyət latın əlifbasına dərhal keçidi deyil, mərhələli və hazırlıqlı bir prosesi zəruri edir. Tatarıstanda latın əlifbasına keçid baş verərsə, bu, yalnız geniş

hazırlıq işlərindən sonra mümkün ola bilər; əks halda, oxuma-yazma prosesində ciddi çətinliklər yarana bilər.

Bu, mövcud sistemi yenidən quraraq keçid etmək deməkdir. Halbuki Tatarıstanda latın əlifbasına keçid o qədər də mühüm hesab edilmir. Bu səbəbdən Tatar cəmiyyəti üçün məsələ hələlik aktual deyil.

A.İbrahimov daha sonra sosial və tarixi fərqlərə diqqət çəkir. Türk xalqlarının hamısının eyni mərhələdə olmadığını vurğulayır. Məsələn, qırğızlar kimi bəzi türk xalqları hələ yazı ənənəsi formalaşdırmamış ola bilər və bu baxımdan latın əlifbasına keçid onlar üçün uyğun başlanğıc sayıla bilər. Lakin tatarlar kimi artıq oturuşmuş yazı mədəniyyətinə malik xalqlar üçün bu, eyni həll yolu deyil. Latınlaşma bu xalqlarda mövcud yazı düzənini birdən-birə dəyişməyi tələb edir. Bu isə həm sosial, həm də mədəni baxımdan uyğun sayılmır. Marksist baxışa görə də, dəyişikliklər birdən-birə deyil, mərhələli şəkildə aparılmalıdır. Buna görə də latın əlifbasının bütün xalqlara eyni formada tətbiqi düzgün deyil; hər xalqın inkişaf mərhələsi nəzərə alınmalıdır.

A.İbrahimov islah edilmiş ərəb əlifbasını müdafiə edərkən qeyd edir ki, köhnə ərəb əlifbası artıq heç bir ehtiyacı qarşılamır və bütün tənqidlərdə haqlı tərəflər mövcuddur. İbrahimov köhnə ərəb əlifbasının iki yolu olduğunu bildirir: ya onu tamamilə ləğv etmək, ya da islah etmək. Onun fikrincə, inqilab və islahat eyni şey deyil. O deyir: "Mən ümumiyyətlə inqilabi yanaşmanın tərəfdarıyam, lakin bu vəziyyətdə islahat üsulunun daha məqsədəuyğun olduğunu düşünürəm. Çünki mövcud vəziyyət digər təcrübələrin arxasınca getməyi çətinləşdirir."

Alimcan İbrahimovun yanaşmasına görə, Tatarıstanda mövcud ictimai quruluş, təhsil sistemi və texniki imkanlar ərəb əlifbasının islahını dəstəkləyir. Onun fikrincə, ərəb əlifbası dörd əsas xüsusiyyəti ilə uyğun gəlir və bu əlifbanı tamamilə ləğv etmək əvəzinə, hərflərin düzgünləşdirilməsi, yazının sadələşdirilməsi və sözlərin əsasən səslərə uyğun şəkildə yazılması kifayətdir.

Alimcan İbrahimovun bu məsələyə münasibətini dəyərləndirən Menzel qeyd edir ki, Birinci Türkoloji Qurultayda ərəb əlifbasının qəti şəkildə ləğv edilməsi deyil, latın əlifbasına qarşı çıxışlar əsasən yazının islah edilmiş bir ərəb əlifbası əsasında saxlanılmasının mümkünlüyünü göstərirdi.

Bu çıxış Qurultayda böyük rezonans doğurmuş, islahatçı alimlər tərəfindən dəstəklənmişdir. O, elmi fikirlərini sadə xalq dili ilə ifadə etməklə yanaşı, fonetik prinsip, dilin səs quruluşu, maarif və savad məsələlərini sistemli şəkildə işmişdir.

Alimcan İbrahimovun türkologiya sahəsindəki elmi yanaşması onu dövrünn tənqidçi, islahatçı və qabaqcıl təfəkkür sahiblərindən birinə çevirmişdir: Əlifba reformu sahəsində o, təhsilin səviyyəsinə təsir edən faktor kimi fonetik qrafikanı təklif edir; Türk dillərinin ortaq bazasının yaradılması təklifini verir; Elmi bölgülər apararaq dialektologiya, ləhətşünaslıq,

sintaksis üzərində dayanan işlər təklif edir; O, yazı və səs sistemlərinin dildəki sosial funksiyalarına dair analitik təhlillər verir.

Alimcan İbrahimov isə ehtiyatlı mövqe nümayiş etdirdi: "Ərəb qrafikasından imtina edilməsi və latına keçid məsələsində, prinsip etibarilə, biz xalqların yaxınlaşmasına böyük addım görürük və bunu ideal kimi dəstəkləyirik. Lakin bu, yalnız tatar və başqırdlara deyil, bütün türk dillərində danışan xalqlara, ümumən isə Sovet İttifaqının bütün xalqlarına aid olmalıdır" (Buran, A. 2007, s.299).

Qurultay iştirakçılarının əksəriyyəti ərəb əlifbasının islahı ideyasını müdafiə edirdi. Bununla belə, əlifbanın mərhələli şəkildə yenilənməsinə yönəlmiş səsvermənin nəticəsi Azərbaycan latınçılarının mövqeyini sarsıtmadı və onlar öz ideyalarından geri çəkilmədilər. Latın əlifbasının mərhələli tətbiqi yolunda çoxsaylı çətinlik və maneələri nəzərə alan Bakı ziyalıları sonda başqa strategiyaya – ümumittifaq türkologiya qurultayının çağırılmasına qərar verdilər.

Qurultayda əvvəlcə latın əlifbasının tərəfdarları çıxış etdilər. Müzakirələri Moskva dilçisi N.F.Yakovlev açdı və çıxışının böyük hissəsini Kazan tatarları ilə azərbaycanlıların müqayisəsinə həsr etdi: "Kazan tatarlarında savadlılıq səviyyəsi yerli məlumatlara görə 25%-ə yaxındır, Mərkəzi İdarənin məlumatlarına görə isə bir qədər azdır… Bu statistikaya baxdıqda olduqca aydın mənzərə alınır… Latın əlifbasının tətbiqinin asanlığı milli yazı ənənəsinin inkişaf səviyyəsinə tərs mütənasibdir, yəni latın əlifbasının tətbiqindən əvvəl nə qədər çox savadlı olmuşlarsa, latın qrafikasını tətbiq etmək bir o qədər çətindir. Digər tərəfdən, Azərbaycan böyük faiz təşkil edən milli proletariatı ilə seçilir və bu proletariat respublikanın özündə cəmlənmişdir… Bu prizma ilə Kazan tatarlarının vəziyyətini qiymətləndirsək, tam başqa mənzərə görərik. Kazan tatarlarının da proletariat faizi az deyil, lakin onlar səpələnmiş şəkildə yaşayırlar, Tatarıstan Respublikasının hüdudlarından kənarda çoxluq təşkil edirlər. Bundan əlavə, ərəb qrafikası ilə artıq savadlı olanların faizi yüksəkdir, şəhər əhalisinin faizi də böyükdür. Buna görə onların latın islahatı barədə ciddi şəkildə düşünmələri tamamilə təbiidir" (1926 Bakû Türkoloji Kongresinin 70. Yıl Dönümü Toplantısı, 1999, s. 50).

Sonda tatar nümayəndələrinə göstərilən güclü təzyiq nəticəsində qurultayda səslərin əksəriyyəti latın əlifbası lehinə oldu. Qurultayda iştirak edən kommunistlərə aydın oldu ki, latın qrafikasına keçidə müqavimət göstərmək nə qədər təhlükəli ola bilər. 101 "lehinə", 7 "əleyhinə" və 9 "bitərəf" səslə latın əlifbasının üstünlüyünü təsdiqləyən qətnamə qəbul edildi. Lakin "8 fevral 2026-cı il. Zifeldin S.Ağamalıoğluna yazdığı məktub bütövlükdə 1926-cı il Bakı Türkoloji Qurultayı ərəfəsində əlifba məsələsi üzrə siyasi, təşkilati və ideoloji gərginlikləri əks etdirən nadir sənəddir. Məktubun əsas xətti 1926-cı ildə Bakıda keçiriləcək I Türkoloji Qurultay öncəsində əlifba islahatı və latın əlifbasına keçid, qarşıdurmada baş verən mübarizələri əks etdirir. Rəsmi

təqdim olunan rəqəmlərdə latınçılar üstünlük təşkil edir:Latın – 76 nəfər; Ərəb – 30 nəfər; Tərəddüd edənlər – qalanlar.

Əsl vəziyyət isə tam əksidir. Zifeld yazır:

Latın – 30

Ərəb – 73

Rus – 14

Tərəddüdlü – 14

Latın tərəfdarlarının çox azlıq təşkil etdiyi etiraf edilir və bu, müəllif üçün ciddi təşviş mənbəyidir"(Məmmədli, 2025).

"Yeni türk (latın) əlifbasının ərəb və islah edilmiş ərəb əlifbası ilə müqayisədə üstünlüyünü və texniki cəhətdən daha əlverişli olmasını, habelə onun böyük mədəni-tarixi və proqressiv əhəmiyyət kəsb etməsini nəzərə alan qurultay hesab edir ki, yeni əlifbanın tətbiqi və onun həyata keçirilməsi metodu hər bir türk–tatar respublikasının və xalqının öz işidir" (Xəlilov, B. 2013, s.320).

Tatar nümayəndələrinin səsvermədə davranışı onların daxili parçalanmasını əks etdirirdi: :Ğabdulla Atnağulov bitərəf qaldı; bir neçə tatar, o cümlədən Qazi Şərəf "əleyhinə" səs verdi; A.İbrahimov isə həm "lehinə", həm "əleyhinə" səs verdiyi təəssüratı yaratdı və bəlkə də ümumiyyətlə bitərəf qaldı. Bir tatar jurnalisti bunu belə ironik şəkildə şərh etmişdi: "İbrahimov bu üsulla vilayət komitəsinin 'prinsipcə etiraz etmirik, praktik olaraq Tatarıstan üçün keçid mümkün deyil" göstərişini ən orijinal şəkildə yerinə yetirmiş oldu".

Beləliklə, 1926-cı il Türkologiya Qurultayında latın əlifbasını açıq surətdə müdafiə edən qərar qəbul edilmişdi. Bununla belə, qərar mahiyyətcə kompromis xarakterli idi və bir müddət ərzində bütün tərəfləri qane etmişdi. Azərbaycan öz nailiyyətlərinin yüksək qiymətləndirildiyini görür və digər respublikalar üçün nümunə kimi təqdim olunurdu. Tatarıstan isə latın əlifbasına keçməyə məcbur edilmirdi — çünki hər bir respublika bu məsələyə özü qərar verməli idi. Lakin bir il sonra Moskva rəhbərliyi bütün türk dillilər arasında məcburi latınlaşdırma xəttini qəbul etdi.

Qurultayda iştirak edən Alimcan İbrahimov haqqındakı maraqlı faktları Ş.H. Akalın öz kitabında qeydə almışdır. Şükrü Haluk Akalının kitabındakı maraqlı faktlardan biri də odur ki, Q. İbrahimovun həyat yoldaşı qurultayda müxbir kimi fəaliyyət göstərdiyini qeyd edir (Akalın, 2025, s. 57).

Müxtəlif türk dillərində olan çıxışlar stenoqrafiyaya düşməmişdir. Alimcan İbrahimov da tatar dilində çıxış etmişdir. Ancaq onun çıxışları qeydə alınmışdır. Bu hadisə necə baş vermişdir? "Altıncı oturumda Kırımdan Habibulla Abduraşidoğlu Odabaş türk dilində, Kazandan Alimcan İrfanoviç İbrahimov tatar dilində, Daşkənddən Şakircan Rahimi özbəkcə, Bakıdan Fərhad Fərhadoğlu Ağazadə türk dilində, Ufadan Habibulla A.Kagiroviç Habitov başqırdca, Kazandan

Abdurrahman Eymanoğlu Saadi tatarca məruzələr söyləmişlər. Alimcan İbrahimov isə sonra özü çıxışını rus dilinə tərcümə etmişdir. Rahiminin çıxışını Usmanov rus dilinə çevirdiyi üçün qurultayın yazılı sənədlərinə nə söylədikləri keçmişdir. F.Ağazadə də çıxışlarındakı faktları rus dilinə tərcümə edərək sənədlərdə bu günə gəlib çatmışdır" (Akalın, 2025, s. 118). Deməli, Alimcan İbrahimovun qurultaydakı çıxışları ilə bizim tanışlığımız yalnız onun özünün tərcüməsi əsasında olmuşdur.

Alimcan İbrahimov sadəcə Qurultay çıxışı ilə deyil, eyni zamanda yazıcı, publisist, maarifpərvar kimi bütün ömrünü Tatar xalqının maariflənməsinə, Türk xalqları arasında mədəni bərəkətin formalaşmasına həsr etmişdir. Onun təhlil xarakterli yazıları mövcud tədris metodlarını tənqid etməklə yanaşı, yeni metodoloji yanaşmaları da təklif edir.

İstifadə olunmuş ədəbiyyat:

1. 1926 Bakû Türkoloji Kongresinin 70. Yıl Dönümü Toplantısı (29–30 Kasım 1996). — Ankara: Türk Dil Kurumu, 1999. — 119 s.
2. 1926 Bakü Türkoloji Kurultayı: Tutanaklar. — Ankara: Türk Dil Kurumu Yayınları, 2008. — 486 s.
3. Akalın Ş.H.100.Yılında 100 Soruda Birinci Türkoloji Kurultayı / –Ankara: Erkmen Yayımçılık, 2025, –299 s.
4. Birinci Türkoloji Qurultayın Görünən və Görünməyən tərəfləri. Elmi sessiyanın materialları. / Bakı şəhəri, 10 iyun, 2016-cı il.
5. Buran, Ahmet. Kurşunlanan Türkoloji. — Elazığ: Manas Yayıncılık, 2007. — 396 s.
6. Cəfərov, N, Hüseynova, M.,Qəribli, A. Birinci Türkoloji Qurultayda Əlifba Məsələsi // Türkologiya, №1,–s.11-31
7. Xəlilov, B. Türkologiyaya giriş. Bakı, "Бакы Чап Еви" neşriyyatı, 2013, 384 seh.
8. Məmmədli, N. Birinci Türkoloji Qurultay Məxfi sənədlərdə/ Xalq qəzeti, 2025.
9. Ашнин, Ф.D.; Алпатов, В.М.; Насилов, Д.М. Репрессированная тюркология. — Moskva: Восточная литература (RAN), 2002. — 296 s.
10. Галимджан Ибрагимов и XXI век. Материалы Международной научно-практической конференции, посвященной 120-летию со дня рождения Г.Ибрагимова. — Казань, 2007. — 332 с.
11. Зәкиев М.З. Галимҗан Ибраһимов — тел галиме // Әсәрләр. 8 т.: 8 т. — Казан, 1987. — 335–360 б.
12. Казанская лингвистическая школа: Книга первая: Казанская тюркологическая лингвистическая школа/ сост. М.З.Закиев.- Казань: Татар. кн. изд-во, 2008. – С. 68-74
13. Первый Всесоюзный Тюркологический Съезд: 26 февраля–5 марта 1926 г. (Стенографический отчет). — Bakı: "Нагыл еви", 2011. — 552 s.